## Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 90 illiyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz İnstitutun əməkdaşlarını təbrik edirəm. Biz dostluq cəmiyyəti olaraq Azərbaycan ədəbiyyatının ölkəmizdə təbliğinə önəm veririk. Cəmiyyətin orqanı olan "Sadaqatuu" ("Dostluq") qəzetində Azərbaycan ədəbiyyatından nümunələr veririk. Ərəb dilində nəşr etdirdiyim "Qarabağ mübarizələr tarixi" və "Şuşa" kitablarında ədəbi əlaqələrimizə də toxunuruq.

Ədəbiyyat İnstitutu ilə əlaqələrin yaradılmasında mənə dəstək olan prof. İmamverdi Həmidov, dr. Fazil Güney, dr. Elnarə Zeynalova, dr. Şeyxəli Əliyev və Elnur Mustafayevə minnətdarlığımı bildirirəm.

Artıq biz Bağdadda Füzuliyə həsr edilmiş beynəlxalq konfrans keçirmişik və konfransda Azərbaycan alimləri dəyərli məruzələrlə çıxış etmişdir. Konfransda dinlənilmiş məruzələr ərəb dilində ayrıca kitabda nəşr olunacaq. Məqsədimiz xalqlarımız arasında yaranmış tarixi-ədəbi əlaqələri müasir dövrdə daha da zənginləşdirməkdir.

Ədəbiyyat İnstitutunun əməkdaşlarına cansağlığı və elmi-tədqiqat işlərində yeni-yeni uğurlar arzulayıram. İnanıram ki, bizim əlaqələrimiz daha da genişlənəcək.

Dərin hörmətlə

*Professor* ***Motaz Muhi ABDULHƏMİD***
*İraq-Azərbaycan Dostluq Cəmiyyətinin sədri,*
*Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü*

*İraq, Bağdad*